# "Gənc qızların təhsilinə dəstək" layihəsi iştirakçılarının Məzun Günü keçirilib






*İyunun 23-də "Gənc qızların təhsilinə dəstək" layihəsi çərçivəsində dəstək alaraq ali təhsilini başa vuran tələbə qızların əzmkarlığını, təhsilə bağlılıqlarını və əldə etdikləri nailiyyətləri qeyd etmək məqsədilə Məzun Günü keçirilib.*

Bu barədə Elm və Təhsil Nazirliyindən verilən məlumatda bildirilib ki, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə baş tutan layihənin Məzun Günü tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, dövlət qurumları və özəl sektorun nümayəndələri, tərəfdaş qurumların təmsilçiləri, eləcə də layihənin iştirakçıları və məzunları iştirak ediblər. Tədbir layihənin nəticələri və əldə olunan nailiyyətləri özündə əks etdirən videoçarxın nümayiş etdirilməsi ilə başlayıb.

Tədbirdə ilk olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova belə layihələrin davamlı və təsirli nəticələr verdiyini qeyd edib və çıxışında gənc qızların təhsil yolunda qarşılaşdıqları çətinlikləri dəf etmələrinin cəmiyyət üçün örnək olduğunu, bu cür təşəbbüslərin onların gələcəyinə inamı artırdığını bildirib.

Elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, qızların təhsilə cəlb olunması fərdi uğurlarla yanaşı, bütövlükdə cəmiyyətin inkişafına xidmət edir. Nazir vurğulayıb ki, dövlət tərəfindən bu kimi təşəbbüslərin dəstəklənməsi təhsilin əlçatanlığını artırır və bərabər imkanların yaradılmasına xidmət edir. Qızların təhsilinə dəstək həm sosial ədalətin təmin olunması, həm də ölkənin gələcək inkişafına töhfə baxımından strateji əhəmiyyət daşıyır.

Bu layihənin davamlılığının təmin olunmasının təhsil sisteminin inkişafına mühüm töhfə verəcəyini deyən Emin Əmrullayev əlavə edib ki, bir qadının təhsili, əslində, bir ananın təhsili deməkdir. Tədqiqatlar göstərir ki, təhsilli anaların övladları daha savadlı, daha hazırlıqlı və daha bacarıqlı böyüyürlər. Bu baxımdan qızların təhsilinə kiçik yaşlardan diqqət yetirmək dövlətin uzunmüddətli inkişafı üçün həlledici amildir.

Nazir diqqətə çatdırıb ki, Elm və Təhsil Nazirliyinin layihəyə verdiyi dəstək onun daha da genişlənməsinə və davamlılığının təmin olunmasına səbəb olub. Hazırda yüzlərlə tələbə qız bu layihədən faydalanır və həyatlarında yeni imkanlar əldə edir. Bildirib ki, bu təşəbbüslər bir daha sübut edir ki, qadınların təhsili və gücləndirilməsi cəmiyyətin hərtərəfli inkişafının əsasını təşkil edir.

Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədri Elnur Nəsibov "Gənc qızların təhsilinə dəstək" təşəbbüsünün təkcə maddi yardım deyil, gələcəyin parlaq və savadlı qadın liderlərinə açılan bir yol olduğunu vurğulayıb. Fond rəhbəri çıxışında həmçinin dövlət-özəl tərəfdaşlığının vacibliyinə toxunaraq bildirib ki, bu cür təşəbbüslər özəl sektorun da sosial məsuliyyətə töhfə verməsi nəticəsində mümkün olur. Elnur Nəsibov gənc qızların uğurlarının bu əməkdaşlığın real nəticəsi olduğunu qeyd edib.




Azərbaycan Dillər Universitetinin, eləcə də "Hənifə Məlikova-Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramının məzunu Leyla Vəliyeva, Kiyev Milli Texnologiya və Dizayn Universitetinin, eyni zamanda "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramının məzunu, şəhid Elşad Həsənovun həyat yoldaşı Aksana Həsənova çıxış edərək öz təəssüratlarını bölüşüb, təşkilatçı qurumlara təşəkkürlərini ifadə ediblər.












Tədbirin davamında təqaüd proqramı və sosial layihənin məzunları səhnəyə dəvət olunub. Onlara təhsil müddətində göstərdikləri uğurlu nəticələrə və layihəni uğurla başa vurduqlarına görə təşəkkür edilib, təbriklər ünvanlanıb və gül dəstələri təqdim olunub.

Məzun Günü bədii hissə ilə sona çatıb.

Qeyd edək ki, ali məktəblərə yüksək balla daxil olmuş, aztəminatlı və həssas qruplardan olan tələbə qızlara maddi dəstək göstərməyi hədəfləyən "Hənifə Məlikova-Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı üzrə tələbələrə aylıq 200 manat təqaüd təyin olunur. 2021-ci ildə 14, 2022-2023-cü illərdə 25, 2024-cü ildə isə 145 tələbə qız bu imkanlardan faydalanıb. Artıq 12 tələbə qız ali təhsilini uğurla başa vuraraq məzun adını qazanıb.

2021-ci ildən həyata keçirilən və qəhrəman şəhidlərimizin ali məktəbə qəbul olmuş həyat yoldaşlarını sosial və mənəvi baxımdan dəstəkləyən "Sən tək deyilsən" sosial təşəbbüsü isə indiyədək 25 iştirakçını əhatə edib və 3 nəfər şəhid xanımı məzun olub.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 24 iyun (№ 128).- S.5.